# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 48** **Bakı şəhəri, 21 fevral 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" 2014-cü il 26 fevral tarixli 63 nömrəli, "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 19 mart tarixli 88 nömrəli, "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 13 avqust tarixli 275 nömrəli, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın və "Vəzifə (tarif) maaşlarına əlavə verilən işçilərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2015-ci il 12 iyun tarixli 225 nömrəli və "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 24 avqust tarixli 317 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respub-likasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 302-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaş-larının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1992-ci il 31 iyul tarixli 94 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 371 nömrəli, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2013-cü il 11 iyun tarixli 908 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1352 nömrəli Fərmanının 9-cu hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1001, № 10, maddə 1295; 2016, № 2 (II kitab), maddə 355, № 9, maddə 1585; 2018, № 9, maddə 1943, № 10, maddə 2170, № 11, maddə 2462; 2019, № 3, maddə 518, № 8, maddə 1460; 2020, № 4, maddə 477, № 12 (V kitab), maddə 1613; 2021, № 11, maddə 1259) ilə təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.26-cı bəndin ikinci cümləsində "sanitar-epidemioloji nəzarət" sözləri "tibbi-sanitariya" sözləri ilə əvəz edilsin;

1.2. 10-14-cü bənddə "Sanitar-epidemioloji nəzarət" sözləri "Tibbi-sanitariya" sözləri ilə əvəz edilsin;

1.3. 12.10-cu bəndin üçüncü cümləsində "sanitar" sözü "sanitariya nəzarəti" sözləri ilə əvəz edilsin;

1.4. "Müvəqqəti saxlama yerlərinin daxili intizam qaydaları"na 9 nömrəli əlavə - "MSY-də keçirilən sanitariya-gigiyena tədbirlərinin qeydiyyatı Kitabı"nın "Qeyd"ində "sanitar-epidemioloji" sözləri "tibbi-sanitariya" sözləri ilə əvəz edilsin.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 319; 2015, № 5, maddə 617; 2016, № 7, maddə 1348) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın 2.5-ci bəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 275 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1009; 2016, № 2 (II kitab), maddə 362; 2018, № 8, maddə 1817; 2020, № 6, maddə 813) ilə təsdiq edilmiş "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları"nın 3.6-cı bəndinin üçüncü cümləsində "sanitar-epidemioloji xidməti qurumu" sözləri "sanitariya-epidemioloji xidmət müəssisəsi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 225 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 797; 2019, № 8, maddə 1446; 2020, № 11, maddə 1384; 2021, № 6 (IV kitab), maddə 667) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Vəzifə (tarif) maaşlarına əlavə verilən işçilərin Siyahısı"nın 1.1.2-ci yarımbəndində "sanitar-epidemioloji nəzarət xidmətinin" sözləri "dövlət sanitariya nəzarəti orqanlarının və sanitariya-epidemioloji xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454; 2018, № 4, maddə 813, № 5, maddə 1127; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 477, № 11, maddə 1381; 2021, № 11, maddə 1258) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 7.8-ci bənddə "sanitar" sözü "sanitariya nəzarəti" sözləri ilə əvəz edilsin;

5.2. 17.24-cü bənddə və 19.13-cü bəndin üçüncü cümləsində "Sanitar-epidemioloji nəzarət" sözləri "Tibbi-sanitariya" sözləri ilə əvəz edilsin.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 23 fevral.- S.8.